**MƏDƏNİYYƏT DÜNYASI**
Elmi-nəzəri məcmuə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
XXXVII buraxılış, Bakı, 2019

**МИР КУЛЬТУРЫ**
Научно-теоретический сборник
Азербайджанский Государственный Университет Культуры и Искусств,
XXXVIIвыпуск, Баку, 2019

**THE WORLD OF CULTURE**
Scientific-theoretical bulletin
Azerbaijan State University of Culture and Art, XXXVIIedition, Baku, 2019

**UOT 002:74**

**Tamilla Əsgərova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**AZ-1065, Bakı şəhəri, İnşaatçılar prospekti 39**
**E-mail: asgerova.70@mail.ru**

# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNDƏ RƏSSAMLIĞA DAİR KİTABXANA-İNFORMASİYA RESURSLARI FONDUNUN KOMPLEKTLƏŞDİRİLMƏSİ VƏ ELMİ SİSTEMLƏŞDİRİLMƏSİ

**Xülasə:** Məqalədə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) təcrübəsi əsasında rəssamlıq üzrə ali təhsilin kitabxana-informasiya təminatını vəziyyəti təhlil olunur. Burada ilk dəfə olaraq ADMİU-nun bu sahədəki fəaliyyəti elmi tədqiqata cəlb olunur. Onun ölkəmizdə təsviri incəsənət üzrə ali təhsilin kitabxana-informasiya təminatı sahəsində tutduğu rol araşdırılır və əhəmiyyəti araşdırılır.

**Açar sözlər:** təsviri incəsənət, təhsil, mütaliə, kitab, elektron resurs, internet, ədəbiyyat/

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) müəllim və tələbələrin elmi mütaliə prosesini təşkil etmək məqsədilə burada hələ 1925-ci ildən yaradılmış kitabxana fəaliyyətə başlamışdır. Zəngin kitab fonduna malik kitabxananın formalaşması və kitabxana-biblioqrafiya xidmətinin səviyyəsinin yüksəlməsi ADMİU-nun fəaliyyətinin bütün dövründə və hazırda da onun əldə etdiyi ən mühüm elmi mədəni nailiyyətlərdən biridir.

Universitetin Kitabxana-İnformasiya Mərkəzində (bundan sonra - Mərkəz) müxtəlif sahələr üzrə sənəd fondları, o cümlədən rəssamlığa dair çoxşaxəli ədəbiyyat fondu formalaşmışdır. Mərkəzin rəssamlığa dair nəşrlər fondunun sənəd-informasiya tərkibinin zənginləşməsi universitetin həyatında həmişə aktual və vacib məsələlərdən birini təşkil edib.

Burada komplektləşdirilmiş elmi, elmi-kütləvi və tədris ədəbiyyatı rəssamlıq sahəsi ilə bağlı sənəd-informasiya tələbatı formalaşan istifadəçilərin (professor-müəllim heyəti, tələbə, magistrant, doktorant və dissertantların) mühüm mütaliə mənbəyinə,

zəngin bilik xəzinəsinə çevrilmişdir. Bu xəzinə oxucuların mənəvi zənginliyinə, elmi keyfiyyətlərinin təkmilləşməsinə, ictimai-siyasi görüşlərinin yüksəlməsinə, ən əsası da milli və xarici təsviri incəsənətin dərk edilməsinə mühüm təsir göstərir.

Aparılan ümumiləşdirmələr göstərir ki, mərkəzin rəssamlığa dair ədəbiyyat fondu təsviri incəsənətin tədrisində və sənətşünaslığın kitabxana-informasiya təminatında vacib rola malikdir və bu sahədə xeyli nailiyyətlər əldə edilmişdir. Bu uğurları və qazanılan təcrübələri işıqlandırmaq, təhlil etmək və gələcək inkişaf perspektivlərini göstərmək ehtiyacı duyulur. Çünki mərkəz, oxuculara sahə üzrə geniş kitabxana-informasiya xidməti göstərməklə onların mütaliəsinə və tədris prosesindəki fəaliyyətinə əhəmiyyətli təsir göstərir.

Bu istiqamətdə oxucuların sorğu tələbatını nəzərə alaraq fondun tərkibcə və quruluşca optimallaşdırılmasını həyata keçirir, rəssamlığa dair nəşrləri, tədris, peşəyönümlü ədəbiyyatı geniş şəkildə komplektləşdirir. Burada rəssamlığa dair müxtəlif mənbələrdən alınacaq kitabların xüsusi çəkisi, planı, sənəd-informasiya mənbələri düzgün və dəqiq müəyyənləşdirilir. Müntəzəm olaraq fondun sənəd-informasiya dolğunluğu, daşıdığı vəzifələr və oxucu kontingenti geniş təhlil olunur. Mütəmadi şəkildə həm oxucuların, həm də fondun tərkib hissələri ardıcıl şəkildə öyrənilir. Sənəd-informasiya təminatı prosesində az oxunan kitabların və digər nəşrlərin səbəbləri meydana çıxarılır, öyrənilir, xarakterizə edilir və gələcəkdə fondun tərkibcə komplektləşdirilməsinin ümumi perspektivi müəyyənləşdirilir.

Şübhəsiz ki, bütünlükdə fondda olan sənəd-informasiya təminatının optimallığını qısa bir müddətdə dəqiqləşdirmək olmur. Buna görə də, rəssamlıq üzrə sənəd-informasiya fondunun nəşrlərlə komplektləşdirilməsində seçmə prinsipi geniş nəzərə alınır və tərtib edilən ədəbiyyat sifarişlərində əks etdirilir. Burada yaradılan mövzu-tipoloji planın tərtibi sənəd-informasiya fondunun tərkibcə formalaşma prinsiplərinin mühüm tərkib hissələrindən birini təşkil edir.

Tipoloji tərkibinə görə (kitablar, jurnallar, dissertasiyalar, avtoreferatlar, kataloqlar, CD-lər və s.) fondun tənzimləşdirilməsi mühüm əhəmiyyət kəsb edir (5). Belə ki, fonda daxil olan sənədlərin nəşr tipləri müxtəlif məqsədlərlə, sorğularla istifadə edilir və informasiya bolluğuna isnad edir (1, s.59).

Mərkəzin kitabxana-biblioqrafiya və informasiya fəaliyyəti üzrə iş planına əsasən *"Sahəvi sənəd-informasiya fondlarının ADMİU-nun fakültələrində təşkil edilən tədris proqramlarına və elmi-tədqiqatların istiqamətlərinə uyğun çap və elektron nəşrlərlə komplektləşdirilməsi"* işinə müvafiq olaraq sənəd-informasiya resursları fondunun rəssamlığa dair nəşrlərlə müntəzəm və planlı şəkildə zənginləşdirilməsi, oxucuların informasiya tələbatına uyğun formalaşdırılması və inkişafı məqsədilə ADMİU-nun "Rəssamlıq" fakültəsində təşkil olunan fənn proqramlarına əsasən tədris olunan mövzular təhlil olunur və bu istiqamətdə komplektləşdirilmənin profili müəyyənləşdirilir. Nəticədə fondun rəssamlıq üzrə sənəd-informasiya resursları ilə əhatəli olaraq komplektləşdirilməsi təmin edilir.

Belə ki, fondun rəssamlığa dair nəşrlərlə cari komplektləşdirilməsi Heydər Əliyev Fondu, ADMİU-nun nəşriyyatı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Kitabxana Kollektoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İşlər İdarəsi, Azərbaycan Milli Kitabxanası, AMEA-nın Memarlıq və İncəsənət İnstitutu, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, ayrı-ayrı alim və mütəxəssislər, müəlliflər, kitab mağazaları və digər mənbələr hesabına həyata keçirilir (4, s.172).

Sənəd-informasiya resursları fondunun ümumi həcmi 45664 nüsxə nəşrdən ibarətdir ki, bunlardan da təkcə Azərbaycan dilində 288 adda 864 nüsxə nəşr rəssamlığa dair ədəbiyyatdır.

Kitabxanalarda incəsənət, memarlıq və idman mövzuları ilə əlaqədar fondda saxlanılan ədəbiyyatın sistemləşdirilməsi məqsədilə UOT cədvəllərində ayrıca şöbə təşkil edilmişdir (3, s.15). ADMİU-nun Kitabxana-informasiya Mərkəzində də sənədlərin elmi sistemləşdirilməsi məhz UOT cədvəlləri əsasında həyata keçirilir.

UOT-da 7-ci şöbə "İncəsənət. Dekorativ - tətbiqi incəsənət. Fotoqrafiya. Musiqi. Oyunlar. İdman" adlanır. Şöbə daxilində incəsənətin, tikintinin müxtəlif sahələri, dekorativ tətbiqi incəsənət, rəssamlıq, çertyoj, bədii rəngkarlıq, dizayn, fotoqrafiya, musiqi, oyunlar və idmana dair ədəbiyyat təsnifləşdirilir.

7-ci şöbənin ümumi quruluşuna nəzər salaq:

71 - Ölkəmiqyaslı planlaşdırma. Rayon planlaşdırılması. Şəhərsalma. Landşaft və bağ - park tikintisi.

72 - Memarlıq

73 - Plastiki incəsənət

74 - Rəsm və rəsmxətt. Dekorativ - tətbiqi incəsənət. Dizayn.

75 - Rəssamlıq

76 - Qrafiki incəsənət. Qrafika. Qravyura.

77 - Fotoqrafiya. Kinomotoqrafiya və bunabənzər proseslər.

78 - Musiqi

79 - Fiziki incəsənət. Kütləvi əyləncə. Oyunlar. İdman.

Əsas şöbələrlə yanaşı burada yüzlərlə yarımşöbə, bölmə və yarımbölmə verilmişdir. UOT-un bu şöbəsində ilk yeri incəsənətin müxtəlif problemlərinə dair ədəbiyyatın kataloqlaşdırılmasını nəzərdə tutan 7.0 indeksi ilə başlayan kodlaşma tutur. Belə ki, burada incəsənətin müxtəlif məsələlərinə dair ədəbiyyatın sistemləşdirilməsi nəzərdə tutulur.

UOT-un son 2001-ci il nəşrində əsas şöbələrdən birini də "74 - Rəsm və rəsmxətt. Dekorativ-tətbiqi incəsənət. Dizayn" adlı şöbə təşkil edir. Müasir cəmiyyətimizdə mədəniyyətin və incəsənətin mühüm tərkib hissəsini təşkil edən dekorativ-tətbiqi incəsənət həmçinin tekstil sənayesinin ayrılmaz tərkib hissəsidir. Eyni zamanda müxtəlif məzmunlu və məqsədli rəsm və əl işlərinin, rəsmxətt və çertyojlarla bağlı ədəbiyyatın kataloqlaşdırılması da şöbənin indeksləri altında verilir. Rəsmlə bağlı müxtəlif problemləri özündə əks etdirən bu şöbənin quruluşuna nəzər salaq:

74 - Rəsm və rəsmxətt. Dekorativ-tətbiqi incəsənət. Dizayn.

741/ 744 - Rəsm və rəsmxətt.

741 - Rəsm. Ümumi məsələlər.

742 - Rəsm və çertyojun perspektivləri.

743 - Anatomik rəsm.

744 - Rəsmxətt. Geometrik, texniki rəsm.

745/749 - Dekorativ-tətbiqi incəsənət. Təsviri incəsənət məhsulları. Dizayn.

745 - Təsviri incəsənət məhsulları. Təsviri yaradıcılıq.

746 - Əlişləri.

747 - İnteryer.

748 - Xrustal.

74.01/.09 - İncəsənətin nəzəriyyəsi, estetikası və texnikası.

741.02 - Rəsmin texnikası.

741.5 - Karikatura.Satirik və yumoristik şəkillər.

744.3 - Çertyoj stolları və lövhələri. Çertyojluğa aid olanlar.

744.4 - Çertyojların hazırlanması. Çertyojluq işləri.Rəsmxəttin qaydaları.Rəsmxəttə dair göstərişlər.

745.04 - Dekorativ-tətbiqi incəsənətdə mövzu və obrazlar.

746.02 - Əlişlərinin texnikası.

746.1 - Tikiş işləri.

7-ci şöbənin növbəti əsas yarımşöbələrindən birini də “75 - Rəssamlıq” şöbəsi təşkil edir.Mədəniyyətin və incəsənətin ən aparıcı sahəsi olan rəssamlıq UOT-da xüsusi nəzərə alınan məsələlərdən biridir.Çünki rəssamlıq incəsənətin ən dəyərli və qiymətli sahələrindən biri kimi dünya sivilizasiyasının aparıcı yaradıcılıq istiqamətdir.Rəssamlıqla dünyanın hər ölkəsində və hər tərəfində məşğul olunduğundan bu sahənin müxtəlif problemlərini əks etdirən ədəbiyyatın kataloqlaşdırılmasına da xüsusi əhəmiyyət verilmişdir.Bu əhəmiyyətli nəzərə alaraq UOT-da rəssamlıq adlı ayrıca şöbə verilmişdir. Həmin şöbənin quruluşu belədir:

5 - Rəssamlıq.

75.01 - Rəssamlığın nəzəriyyəsi və fəlsəfəsi.

75.011.2 - Rəssamlıqda milliyyətçilik. Rəssamlığın sosial mahiyyəti.

75.017.4 - Rəng. Kolarit. Rənglərin harmoniyası.

75.02 - Rəssamlığın texnikası.

75.03 - Rəssamlığın tarixi.

75.04 - Bədii təsvirin obyektləri. Rəssamlığın janrları.

75.05 - Rəssamlığın tətbiqi.

Şöbənin quruluşuna ümumi nəzər yetirdikdə aydın olur ki, burada rəssamlığın ayrı-ayrı problemlərinə dair indekslər verilmişdir.Həmin indekslər bu sahə ilə bağlı olan ədəbiyyatın kataloqlaşdırılması işini xeyli asanlaşdırır.

UOT-un 76-cı şöbəsi “Qrafiki incəsənət.Qrafika.Qravyüra” adlanır.Bu indeks altında qrafika ilə bağlı olan bütün məsələlər öz əksini tapmışdır. Şöbənin quruluşu aşağıdakı kimidir:

76 - Qrafiki incəsənət. Qrafika.Qravyura.

76.01 - Qrafiki incəsənətin nəzəriyyəsi və estetikası.

76.02 - Qrafiki incəsənətin texnikası.

76.03/.09 - Qrafikanın tarixi, istiqaməti, janrları.

UOT-un 7-ci şöbəsi təsnifat daxilində digər şöbələrlə çox sıx qarşılıqlı münasibətdədir.İnsan fəaliyyətinin mühüm sahələrini özündə əks etdirən şöbənin digər sahələrlə qarşılıqlı əlaqəsi başadüşüləndir və təsnifat cədvəlində bu tipli münasibətlərin verilməsi onun müsbət cəhətlərindən biri kimi qiymətləndirilə bilər (2, s.395).Bu cür əlaqələr eyni mövzulu müxtəlif sayda olan ədəbiyyatın kataloqlaşdırma işini xeyli asanlaşdırır və nəşrlərin təsnifləşdirilməsindəki müəyyən çətinlikləri aradan qaldırır.UOT-da həm şöbədaxili, həm də digər şöbələrlə əlaqələri göstərmək üçün müxtəlif simvollardan istifadə olunur.

Məsələn, 7.01:111.85 - İncəsənətdə gözəlliyin fəlsəfəsi.Bu indeksdə 7.01 - incəsənətin fəlsəfəsi rubrikası münasibət işarəsi (:) vasitəsilə 111.85 - gözəlliyin fəlsəfəsi ilə birləşdirilmişdir.

7.021.34→741 - Bu indeks şöbənin öz daxilində bir neçə yarımşöbədə müxtəlif cəhətlərdən baxılan eyni anlayışlar arasında isnad əlaqələrini ifadə edir. Konkret olaraq burada 7.021.34 - incəsənətdə iş metodları rubrikası ilə 741 - Rəssamlıq. Ümumi məsələlər rubrikası arasındakı əlaqəni göstərir.

743→611 - UOT-un 2 şöbəsi arasında əlaqəni ifadə edən bu indeksdə eyni bir anlayış, anatomiyanın müxtəlif cəhətlərinin eyni bir indeks altında birləşdirilməsini göstərir.Belə ki, indeksdə verilən 743- Anatomik rəsmi, 611 - İnsan anatomiyasını bildirir.

UOT-da bütövlükdə 7-ci şöbənin digər şöbə, yarımşöbə və bölmələrlə ən çox əlaqəsi olan rubrikası 745.9.05 indeksidir.Belə ki, bu rubrika həm şöbədaxili, həm də digər şöbələrin müvafiq rubrikaları ilə birləşdirilməsidir. Həmin indekslərə nəzər salaq:

745.9.05:061.7 - Bayram və mərasimlər üçün bütövlükdə rəng və rəng kompozisiyalarının tətbiqi.

745.9.05:394.2 - Milli bayramlarda rəng və rəng kompozisiyalarının tətbiqi.

745.9.05:394.4 - Möhtəşəm görüşlərdə və ziyarətlərdə rəng və rəng kompozisiyalarının tətbiqi.

745.9.05:792.023 - Teatrların və səhnələrin bəzədilməsində rəng və rəng kompozisiyalarının bütövlükdə tətbiqi.

Beləliklə, 745.9.05 - Rəng və rəng kompozisiyalarının bütövlükdə tətbiqi indeksi münasibət işarəsi vasitəsilə həm şöbədaxili 792.023, həm də ayrı-ayrı şöbələrin müvafiq rubrikaları ilə birləşdirilərək mürəkkəb indekslər yaradılmışdır.

Yuxarıda göstərilən misallardan da göründüyü kimi 7-ci şöbə həqiqətən də çoxlu sayda qarşılıqlı əlaqədə olaraq xeyli sayda mürəkkəb indekslər əmələ gətirmişdir.Maraqlıdır ki, bu əlaqələrin böyük əksəriyyəti (:) münasibət işarəsi vasitəsilə birləşdirilmişdir.Bunun əsas maraq doğuran cəhəti budur ki, bu cür münasibət iki ayrı-ayrı mövzunu eyni bir indeks altında birləşdirir.Lakin, həmin mövzular birləşərək bir sahəni əhatə edir.Kitabxana fondlarında bu tipli yüzlərlə ədəbiyyat saxlanıldıqdan onların sistemləşdirilməsində bu cür indekslərin verilməsi UOT-un digər müsbət cəhəti kimi qeyd olunmalıdır.

## Ədəbiyyat:


**1.** Həsənov M. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi. Dərs vəsaiti. - B.: BDU, 2004. - 143 s.

**2.** Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. III hissə.- Bakı: Bakı Universiteti, 2010. - 432 s.

**3.** İsmayılov X.İ. Müasir dövrdə kitabxanaların metodik təminatının bəzi məsələləri// Kitabxanaşünaslıq-biblioqrafiya, 2012. - № 12. S.9-18

**4.** Mürsəlov N. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kitabxana və elmi informasiya fəaliyyətinin təşkili// Azərbaycan Milli Kitabxanasının elmi əsərləri, №9.- Bakı, 2017. S.170-175

**5.** http://admiu.edu.az/az.php?go=kitabxana

**Тамилла Аскерова**

**Комплектовоние и научная систематизация библиотечно-информационного фонда ресурсов живописи в Азербайджанском Государственном Университете Культуры и Искусства**

**Резюме**

В статье анализируется состояние библиотечно-информационного обеспечения высшего образования по живописи основываясь на опыт Азербайджанского Государственного Университета Культуры и Искусства. Здесь впервые привлекается к научному исследованию деятельность АГУКИ в этой области. Исследуется ее роль и особенность в библиотечно-информационном обеспечении в нашей стране по высшему образованию в области искусства.

**Ключевые слова:** изобразительное искусство,образование, чтение, книги, электронные ресурсы, литература

**Tamilla Askerova**

**Complication and scientific systematization of the library information resource of painting at the Azerbaijan State University of Culture and Art**

**Summary**

The article were studied of The Library and Information Center of The Azerbaijan State University of Culture and Art, teaching and promotion of the values of the culture and art of the multicultural library science and scientific information support for the activities of the Fund, its information resources development. The center's achievements in recent years, this area has the existing shortcomings and take the necessary measures to resolve them, the proposals were put forward to the future.

**Keywords:** fine art,producer,education, reading, book, electronic resource, literature

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06.03.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.03.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 25.04.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**